*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 30 mart 2019-cu il № 24 (2341) Qiyməti 30 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir



İstər 2016-cı ilin aprel döyüşləri, istər Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr edilən paradlar, istərsə də genişmiqyaslı təlimlər təsdiqlədi ki, Azərbaycan Ordusu torpaqlarını işğaldan azad etməyə qadirdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qətiyyətlə bildirib ki, Azərbaycan dövləti, Azərbaycan xalqı Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına heç zaman imkan verməyəcəkdir. 2016-cı ilin apreli bu qətiyyətin başlanğıcı oldu. Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində təxribatlarının qarşısı qətiyyətlə alındı, Lələtəpə, Bayraqtəpə kimi olduqca əhəmiyyətli yüksəkliklər də daxil olmaqla min hektarlarla ərazi işğaldan azad edildi. Bu, Azərbaycan Ordusunun böyük tarixi qələbəsi idi. Bu, Azərbaycan Ordusunun gücünü, qüdrətini, döyüş əzmini, qələbə ruhunu təsdiqlədi. Bu, ordu ilə xalqın birliyinin qələbəsi kimi tarixləşdi. Əminliklə təsdiqləndi ki, xalq ordusuna inanır, ona güvənir, ordu xalqa arxalanır. Bu qələbə ermənilərin illərlə formalaşdırmaq istədiyi rəyin puç olduğunu da təsdiqlədi. Ordumuzun gücü həm də bu amillə bağlıdır.

Azərbaycan Respublikasının Prezidenti bu qələbəni "Aprel zəfəri dərsliklərə salınmalıdır" kimi dəyərləndirdi...

Azərbaycan Ordusu Ali Baş Komandanın döyüş əmriylə başlanğıcı 2016-cı ilin aprel döyüşləri olan Böyük Qələbəni qazanmağa qadirdir.

**"Azərbaycan Ordusu"**

## Aprelin əvvəlindən müharibə veteranlarına Prezidentin aylıq təqaüdü təyin olunacaq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamına əsasən, müharibə veteranları üçün Prezidentin aylıq təqaüdünün təsis olunması nəzərdə tutulur.*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sərəncama uyğun olaraq, aprelin əvvəlindən müharibə veteranlarına kommunal, nəqliyyat və digər xidmətlərə görə sosial müavinət (55 manat) əvəzinə, habelə döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının əmək pensiyasının sığorta hissəsinə əlavə (11 manat) əvəzinə Prezidentin 80 manat məbləğində aylıq təqaüdü təyin olunacaq.

Bu da 80 min nəfərdən ibarət müharibə veteranlarına dövlət dəstəyinin əhəmiyyətli şəkildə artırıldığını göstərir. Təqaüdün ödənilməsi üçün il ərzində 80 milyon manat məbləğində əlavə vəsait ayrılacaq.

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 28-də Tərtər rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

# Azərbaycanın Müdafiə naziri BMT Baş Katibinin müavini ilə görüşüb

*Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov BMT Baş Katibinin müavini - BMT-də Sülhməramlı Əməliyyatlar Departamentinin rəhbəri cənab Jan Pyer Lakrua ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cənab J.P.Lakrua Azərbaycanın indiyədək sülhməramlı əməliyyatlarda, xüsusilə Əfqanıstanda həyata keçirilən missiyada fəaliyyətini və beynəlxalq təhlükəsizliyə dəstəyin davamı olaraq Cənubi Sudan Respublikasında Azərbaycan hərbçilərinin iştirakını yüksək qiymətləndirib.

General-polkovnik Zakir Həsənov BMT-nin Sülhməramlı Əməliyyatlarına töhfə verən dövlətlərin Müdafiə nazirləri səviyyəsində keçiriləcək görüşdə iştirak etməkdən məmnunluq hissi keçirdiyini vurğulayıb.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verərək Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə məhəl qoymamasını BMT Baş Katibi müavininin diqqətinə çatdırıb.

Müdafiə naziri bildirib ki, Azərbaycan münaqişənin sülh yolu ilə həllinə sadiqdir, lakin eyni zamanda ölkəmiz BMT-nin xartiyasına uyğun olaraq, öz torpaqlarını istənilən vasitə ilə azad etmək hüququnu özündə saxlayır.

Görüşdə tərəflər ölkəmizin BMT-nin sülhməramlı əməliyyatlarında iştirakının perspektivləri barədə də geniş fikir mübadiləsi aparıblar.



## Bakıda "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin planlaşdırma konfransı keçirilib

*Martın 28-də Hərbi Dəniz Qüvvələrinin qərargahında Azərbaycanın ərazi sularında təşkil olunacaq "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinin planlaşdırma konfransı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan, Rusiya və Qazaxıstanın nümayəndə heyətlərinin qatıldığı konfransda "Dəniz Kuboku-2019" beynəlxalq müsabiqəsinə hazırlıqla bağlı məsələlər və görüləcək işlər müzakirə olunub. Sonra müsabiqənin keçiriləcəyi təlim-tədris kompleksinə baxış keçirilib.

"Dəniz Kuboku-2019"-da iştirak edəcək ölkələrin nümayəndə heyətləri yarışların təşkilinə və göstərilən diqqətə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.



## Azərbaycan Respublikasının Müdafiə naziri Qazaxıstan tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Qızıl Orda vilayətində hərbi helikopterin qəzaya uğraması ilə əlaqədar Qazaxıstan Respublikasının Müdafiə naziri general-mayor Nurlan Yermekbayevə başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Qardaş Qazaxıstan Respublikasının Qızıl Orda vilayətində hərbi helikopterin qəzaya uğraması nəticəsində hərbi qulluqçunun həlak olması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Martın 26-da gün ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində təxribatlara əl atıb.

Axşam saatlarında düşmən tərəfindən bölmələrimizin mövqelərinin atəşə tutulması nəticəsində cəbhənin Füzuli rayonu istiqamətində Azərbaycan Ordusunun hərbi qulluqçusu Əlləzov Əlləz Ələddin oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin əzizlərinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir!

Eyni zamanda Ermənistan mətbuatı Ermənistan-Azərbaycan dövlət sərhədində Azərbaycan tərəfinin guya mühəndis işləri həyata keçirməklə mövqeləri irəli çəkmək cəhdi barədə xəbər yayıb.

Rəsmi olaraq bildiririk ki, verilən bu məlumat həqiqətə uyğun deyil, Ermənistan tərəfinin növbəti təxribatıdır və cəbhədə vəziyyəti gərginləşdirmək məqsədi daşıyır.

Azərbaycan Ordusu bölmələrinin qəti və adekvat tədbirləri nəticəsində düşmənin atəş nöqtələri susdurularaq onun növbəti təxribatlarının qarşısı alınıb.

Hazırda cəbhə xəttində vəziyyət bölmələrimizin tam nəzarəti altındadır.

* * *

***29 mart 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Ukrayna Xarici İşlər Nazirliyi vətəndaşlarına Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfəri qadağan edib

AZƏRTAC xəbər verir ki, xəbərdarlıq məlumatında Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf yeddi rayonuna (Ağdam, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli) qanunsuz səfərlərin qəti qadağan olunduğu vurğulanır. Bildirilir ki, həmin ərazilərə yalnız Azərbaycanın rəsmi qurumlarının icazəsi ilə səfər etmək mümkündür. Əks halda, qanunu pozan ukraynalılar Azərbaycan üçün "persona non-qrata" elan ediləcək və ölkəyə buraxılmayacaqlar.

## ATƏT-in səhra köməkçiləri Ermənistan hərbçilərinin yaşayış məntəqələrimizi daim atəş altında saxlaması barədə məlumatlandırılıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika martın 28-də Tərtər rayonunda olublar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Tərtər rayon İcra Hakimiyyətində keçirilən görüşdə ermənilərin yaşayış məntəqələrini atəşə tutması nəticəsində yaranan problemlər, cəbhə xəttində yaşayan dinc əhalinin üzləşdiyi çətinliklər barədə məlumat verilib. Tərtər rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bildirib ki, Ermənistan silahlı birləşmələri rayonun təmas xəttinə yaxın olan yaşayış məntəqələrini daim atəş altında saxlayır, dinc əhalinin təsərrüfat işləri ilə məşğul olmasına mane olur.

Diqqətə çatdırılıb ki, sonuncu monitorinqin keçirildiyi 2019-cu il yanvarın 15-dən indiyədək atəşkəs 86 dəfə pozulub. Əsasən rayonun Həsənqaya, Qapanlı və Qazyan kəndləri mütəmadi olaraq iriçaplı silahlardan atəşə tutulub.

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri səmimi qəbul və ətraflı məlumat üçün təşəkkür ediblər.

# “Yaşasın, Pakistan-Azərbaycan dostluğu və qardaşlığı!”

*Pakistan və Azərbaycan arasındakı yaxın və səmimi əlaqələr mədəni irs, qlobal və regional məsələlərlə bağlı sərgilədikləri birgə münasibət və beynəlxalq forumlarda əməkdaşlıqla xarakterizə olunur. Hər iki ölkə bir-birinə sıx dostluq əlaqələri ilə bağlıdır. Xatırladım ki, Pakistan Sovet İttifaqının süqutundan sonra müstəqillik əldə edən Azərbaycanı 1991-ci ilin oktyabrında tanıyan ilk üç dövlətdən birincisidir. Diplomatik əlaqələrin əsası 1992-ci ilin iyununda qoyulmuşdur. Bakıda Pakistan səfirliyi 1993-cü ilin martında açılmışdır. Azərbaycan İslamabadda öz diplomatik missiyasına 1997-ci ilin avqustunda başlamışdır. 2017-ci ildə iki ölkə arasında diplomatik əlaqələrin əsasının qoyulmasının gümüş yubileyi də qeyd olunub. Əməkdaşlıq siyasi, iqtisadi, təhlükəsizlik, mədəniyyət, müdafiə və digər sahələrdə davam etdirilir.*





Qardaş ölkə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı öz qəti mövqeyini də bildirib - Azərbaycana dəstək vermək və həmrəylik nümayiş etdirməklə bu günə kimi Ermənistanla diplomatik əlaqələr qurmayıb, onu bir dövlət kimi tanımayıb. Həmçinin Pakistan Senatının Xarici Əlaqələr Komitəsi Azərbaycana dəstəyini möhkəmləndirmək üçün Xocalı faciəsini genosid kimi tanımışdır.

Azərbaycan da bütün məsələlərdə Pakistanın mövqeyini dəstəkləyir. Hər iki dövlət bir çox beynəlxalq forumlarda eyni maraqlardan çıxış edərək öz fəaliyyətlərini koordinasiya edir, bir-birini müəyyən məsələlərdə qeyd-şərtsiz dəstəkləyir, beynəlxalq təşkilatlarda namizədlər məsələsində qarşılıqlı razılığa gəlirlər. İki qardaş dövlət müdafiə, enerji, infrastruktur layihələrinin icrası, informasiya texnologiyaları, səhiyyə və əczaçılıq, tekstil və farmakoloji preparatlar, xüsusilə bütün mümkün domenlərdə birgə müəssisələrin qurulması və digər sahələrdə əməkdaşlıq edirlər.

Azərbaycanın qardaş ölkə ilə əməkdaşlığında hərbi siyasi amil də hər zaman mühüm rol oynayıb. Bu cəhətdən Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında 2002-ci ildə imzalanan müdafiə və hərbi sahədə əməkdaşlıq haqqında sazişdə hər iki ölkənin hərbi-siyasi sahədə tərəfdaşlığının prioritet istiqamətləri əks olunub. Bu müqavilə ilə dövlətlərimiz arasında hərbi əlaqələr daha da genişlənib.

Martın 23-də qardaş ölkənin "Milli Günü" qeyd olunub. Ölkə səviyyəsində böyük bir təntənə, coşqu ilə qeyd olunan bu bayram müsəlmanların 23 mart 1940-cı il tarixində müstəqil dövlət qurmaq tələblərinin qəbul olunduğu gündür. Bu bayram İslamabadda 31 ədəd top atışıyla başlayıb. Həmçinin Pakistanın "Milli Günü"nə həsr olunmuş hərbi parad da keçirilib. Həmin günlərdə Pakistan İslam Respublikasında rəsmi səfərdə olan Azərbaycanın Müdafiə Nazirliyinin nümayəndə heyəti Pakistanın "Milli Günü"nə həsr olunmuş hərbi paradı da izləyib. Paradda fəxri qonaq qismində Müdafiə naziri general-polkovnik Zakir Həsənov da iştirak edib. Təntənəli marşla keçid və pilotların uçuş bacarıqları nümayiş olunub. Paradda Azərbaycan, Türkiyə, Çin, Səudiyyə Ərəbistanı, Bəhreyn və Şri-Lanka dövlətlərinin hərbçiləri də iştirak ediblər.

Təntənəli mərasimdə ölkəmizi layiqincə təmsil edən Azərbaycan Ordusunun parad heyəti Pakistan İslam Respublikasında rəsmi səfərini başa vuraraq Azərbaycana qayıdıb. Hərbçilərimizin düşüncələrini qələmə almaq üçün parad heyətinin bir qrup üzvi ilə görüşdük.



İlk həmsöhbətim **baş leytenant Kərəm Abbasov** oldu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olan zabit səfərin uğurlu keçdiyini, xoş xatirələrlə yadda qaldığını vurğuladı. O, qeyd etdi ki, paradda iştirak etmək üçün digər ölkələrdən də nümayəndələr var idi, lakin bizə olan diqqət, isti münasibət sanki digərlərindən daha çox idi və özümüzü evimizdəki kimi hiss edirdik. "Hamıya məlumdur ki, ölkəmizin Pakistanla olan əlaqələri çox səmimi və yaxındır. Biz bir çox ümumi cəhətlərimizi, ən əsası bir-birimizin kədərini və sevincini paylaşırıq. Qardaş ölkə üçün əhəmiyyətli olan bu tədbirdə bizim iştirakımız onun göstəricisidir ki, iki ölkə arasındakı mövcud əməkdaşlıq daha da güclənəcək, iki xalq arasında dostluq və qardaşlıq əbədi qalacaqdır. Biz heç vaxt pakistanlı qardaşlarımızın səmimiliyini, qonaqpərvərliyini və mehribanlığını unutmayacaq, onların xatirəsini daim əziz tutacağıq. Bir məqamı da qeyd etmək istərdim: səfərdə olduğumuz zaman bizim şərəfimizə böyük ziyafət təşkil olundu. Bu ziyafətdə Pakistanın birlik komandiri də iştirak edərək bizə olan sevgisini və hörmətini nümayiş etdirdi. Bir gün sonra ziyafətin davamı olaraq heyətimizlə görüşən Pakistan Prezidenti bizimlə səmimi söhbət edərək, gəlişimizdən məmnun olduğunu xüsusilə vurğuladı. Görüşümüzün sonunda heyətimizin rəhbəri polkovnik Rəhman Əsgərova dövlət atributları və simvolu əks olunan hədiyyə təqdim etdi. Bir sözlə, səfərimiz xoş təəssüratlarla yadda qaldı. Paraddakı keçidə isə xüsusi hazırlaşırdıq.



Hər birimiz dərk edirdik ki, bizim üzərimizə böyük məsuliyyət düşür. Həm ölkəmizi, həm də nizami ordumuzu təmsil edirdik. Mərasimi tribunadan, fəxri qonaq qismində izləyən dövlət rəsmiləri arasında Müdafiə nazirimiz general-polkovnik Zakir Həsənovun da olması bizi daha da ruhlandırırdı. Tədbirdən sonra pakistanlıların dediyi "təntənəli marşla keçidinizi çox bəyəndik və ayaqüstə alqışladıq" sözləri hər birimizi qürurlandırdı, ölkəmizlə, şanlı ordumuzla bir daha qürur duyduq. Səfərdə olduğumuz müddət ərzində bizə göstərilən doğma münasibətə və hörmətə görə qardaş ölkəyə təşəkkürümüzü bildiririk. Yaşasın, Pakistan-Azərbaycan dostluğu və qardaşlığı!"

"Belə əhəmiyyətli tədbirdə iştirakçı olmaq, dost ölkəyə səfər etmək hər kəsə qismət olmur. Şəxsi heyət arasında mənim də adımın olduğunu biləndə sevindim, qürurlandım", - **əsgər Şavəddin Əhmədov** düşüncələrini bölüşdü. "Dost və qardaş ölkənin "Milli Günü"ndə sevinclərini bölüşməkdən, təntənəli paradın iştirakçısı olmaqdan hər kəs kimi mən də fərəhləndim. Bu zaman ikiqat sevinc yaşayırdıq. Çünki biz həm ölkəmizi təmsil edir, həm də qardaşlığımızı bütün dünyaya bir daha nümayiş etdirirdik. Onu da qeyd etmək istəyirəm ki, dövlətlərimiz arasındakı bu cür doğma münasibətlər fərdlər arasında da möhkəm dostluqların yaranmasına zəmin yaradır. Səfər zamanı çox sayda pakistanlı dostlar qazandıq. Pakistan xalqının bizlərə qarşı olan səmimi münasibətinin şahidi olduq. Rəsmi səfərimizin ilk günündən ünsiyyətdə olduğumuz hər bir pakistanlının bizə qarşı isti münasibəti xoş hisslər aşıladı. Onların hər biri ölkəmizə tez-tez gəldiklərini və milli adət-ənənələrimizi, mədəniyyətimizi, mətbəximizi çox bəyəndiklərini dedilər. Bu da onun göstəricisidir ki, ölkələrimiz arasındakı möhkəm dostluq özünü cəmiyyətdə də göstərir. Bir sözlə, orada özümüzü doğma ölkəmizdəki kimi hiss etdik və səfərdən xoş təəssüratlarla qayıtdıq. Pakistan ölkəsi xalqımız tərəfindən sevilən və doğması kimi qəbul edilən ölkədir".

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Emin İsmayılov** da dost ölkəyə səfərin yaddaqalan olduğunu və pakistanlılardan doğma münasibət gördüyünü bildirdi: "İki ölkə arasında dostluğun və qardaşlığın nümayişi bir çox məsələlərdə özünü sübut edib. Bunlar arasında 2016-cı ildə düşmən təxribatının qarşısını uğurla alaraq, qələbə qazandığımız aprel döyüşləri zamanı qardaş ölkənin məsələyə münasibətini xatırlatmaq istəyirəm. Pakistan Prezidentinin katibi Əhməd Fərrux demişdi ki, "Pakistan həmişə Azərbaycanın yanındadır və Azərbaycana qardaş və dost ölkədir". Bununla belə hər birimiz bilirik ki, beynəlxalq səviyyəli bir sıra tədbirlərdə Pakistan daim Azərbaycanı Dağlıq Qarabağ məsələsində müdafiə edib, ölkəmizə qarşı erməni təcavüzünü qətiyyətlə pisləyib. Bunun kimi bir çox mühüm məqamlar, eləcə də Pakistanın "Milli Günü"nə həsr olunmuş təntənəli paradda iştirakımız dostluğumuzun, qardaşlığımızın bir daha nümayişi oldu. Səfərdə olduğumuz 12 gün ərzində xalqın, eləcə də hərbçilərin bizə olan doğma münasibətini, hörmətini və diqqətini hiss etdik. Çox qonaqpərvər, mehriban və səmimi xalqdır. Gəldiyimiz ilk gündə bizi öz dilimizdə salamlayaraq qarşılamaları isə hər birimizi qürurlandırdı. Burada ölkəmizə, bayrağımıza, dilimizə yüksək hörmət bəsləndiyinin şahidi olduq. Bunların hamısı əminliklə deməyə əsas verir ki, Azərbaycan-Pakistan strateji tərəfdaşlığı uğurla inkişaf edir, dostluq münasibətləri daha da möhkəmlənir".

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**



# “Gənclərin çağırışaqədərki hazırlığı” fənnini tədris edən hərbi rəhbərlərin toplantısı keçirilib

*Əlahiddə Ümumqoşun Orduda Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində "Gənclərin çağırışaqədərki hazırlığı" fənnini tədris edən hərbi rəhbərlərin peşəkarlığının artırılması məqsədi ilə növbəti təlim toplantısı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən dərslərdə bildirilib ki, gələcəyin əsgərləri olan şagirdlərə vətənpərvərlik hisslərinin aşılanması, hərb sənətinə marağın artırılması, gənclərin hərbi xidmətə yüksək səviyyədə hazırlanması məqsədi ilə müvafiq tədbirlər həyata keçirilir. Bu baxımdan hərbi rəhbərlərin üzərinə böyük məsuliyyət düşür.

Nəzəri dərslərdən sonra hərbi vətənpərvərlik mövzusunda film və video-çarxlar nümayiş etdirilib.

Təlim toplantısında müxtəlif təyinatlı silahların natamam sökülüb yığılması, kütləvi qırğın silahlarından mühafizə vasitələri və onlardan istifadə qaydaları əyani şəkildə göstərilərək normativlər qəbul olunub. Yaralılara ilkin tibbi yardım edilərək onların döyüş meydanından təxliyəsi üzrə dərslər keçirilib.

Yekun tədbirində təlim toplantısının nəticələri, hərbi rəhbərlərin bilik və bacarıq səviyyələri müzakirə edilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəis müavini Cavid Məmmədov və Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Teymur Eyyubov belə təlim toplantıların böyük əhəmiyyət daşıdığını bildirib, hərbi rəhbərlərin peşəkarlığının artırılmasının bundan sonra da diqqət mərkəzində saxlanılacağını vurğulayıblar.



Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin tapşırığı ilə bütün tam orta məktəblərin hərbi rəhbərlərinə yeni geyim formaları və ibtidai hərbi hazırlıq vasitələri təqdim edilib. Tam orta məktəblərdə şagirdlərin vətənpərvər ruhda yetişdirilməsinə xüsusi əhəmiyyət verilməsinin nəticəsidir ki, Heydər Əliyev adına Hərbi Liseydə təhsil almaq üçün müraciət edənlərin sayı ildən-ilə artır.

Sonda hərbi rəhbərləri maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycan silah ixracı məsələsində qarşıya qoyduğu hədəflərə doğru gedir

*Qeyri-neft sektorunun inkişafını prioritet seçən Azərbaycan hazırda sənaye məhsullarının istehsalında uğurlu addımlara imza atır. Prezident İlham Əliyevin ardıcıl və prinsipial siyasəti sayəsində ölkəmiz silah istehsalında da öz brendini yarada bilib. Ölkəmizdə artıq ixrac idxalı üstələyir. Azərbaycan silah ixracı məsələsində də qarşıya qoyduğu hədəflərə doğru gedir.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan bir çox sənaye məhsulları ilə yanaşı, milli silahın istehsalında da uğurlara imza atmaqdadır. Bu proses təkcə iqtisadiyyatın yüksəldilməsi və ixrac potensialının artırılmasına deyil, həm də ölkənin təhlükəsizliyinin qorunması, milli və strateji maraqların təminatına xidmət edir. Son hədəf isə Silahlı Qüvvələrin ehtiyaclarını daxili imkanlar hesabına qarşılamaq, o cümlədən xarici ölkələrə hərbi təyinatlı məhsulları ixrac etməkdir.

Statistik məlumatlara görə, 2013-cü ildə cəmi 13 milyon dollarlıq silah ixrac edən Azərbaycanın 2017-ci ildə ixracat həcmi 100 milyon dolları ötüb. "Made in Azerbaijan" brendi ilə təqdim edilən milli silahlar bu gün NATO ölkələri də daxil olmaqla, dünyanın müxtəlif regionlarında istifadə olunur. "İstiqlal", "Mübariz", "Tufan", "Qasırğa", "Zərbə", "Zəfər" və digər adda hərbi təyinatlı silahlar Azərbaycan Ordusunun qüdrətini artırmaqla yanaşı, hərbçilərin mənəvi ruhunu da yüksəldir.

Azərbaycan istehsal etdiyi silahların gücünü aprel döyüşlərində də düşmənə nümayiş etdirdi. İşğal altında olan torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə xaricdən alınan silahlarla yanaşı, milli silahlarımız da öz sözünü deyib.



Qısa zamanda milli silah istehsalında yüksək nəticələrin əldə olunması Prezident İlham Əliyev tərəfindən qəbul edilən qərarların nəticəsidir. Dövlətimizin başçısının "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasına dair Fərmanı da müdafiə sənayesinin inkişafının dayanıqlılığının təminatına, bu sahədə idarəetmə mexanizmlərinin daha da təkmilləşdirilməsinə xidmət edir. Bu baxımdan silah istehsal edən müəssisələrin müasir standartlara cavab verməsi, eləcə də kadr potensialının gücləndirilməsi daim diqqətdə saxlanılır. Silah istehsal edən zavodlarda qabaqcıl texnologiyaları tətbiq etməklə Azərbaycanda silah istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkili həyata keçirilir. Müəssisələrdə dünyanın inkişaf etmiş ölkələrində istehsal olunan dəzgah və avadanlıq quraşdırılıb. Zavodlarda yeni mexaniki emal sahəsində quraşdırılan proqramla idarə edilən mürəkkəb konstruksiyaya malik məmulatların istehsalı təşkil olunub.

Bu gün əminliklə demək olar ki, Azərbaycan silah bazarında da öz yerini alıb. Yaxın perspektivdə istifadəyə veriləcək istehsal sahələri, eləcə də fəaliyyətə başlayacaq müəssisələr isə təkcə daxili tələbatı ödəməklə deyil, eləcə də "Made in Azerbaijan" brendi altında beynəlxalq müstəviyə döyüş sursatları, atıcı silahlar və artilleriya vasitələrinin çıxarılması təmin ediləcək.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında acınacaqlı xidmət şəraiti və komandirlərin təhqirləri səbəbindən özünə qəsd hadisələri baş verməkdə davam edir.

Düşmən ordusunun hərbi qulluqçusu, 2018-ci ildə Leninakandan hərbi xidmətə çağırılan və altıncı dağ-atıcı alayında xidmət edən Karapetyan Karen Ardaki döyüş postunda avtomatdan ağzına atəş açmaqla özünə qəsd edib.

Hərbi qulluqçu K.Karapetyanın anası oğlunun incidilərək özünü öldürmə həddinə çatdırılması ilə bağlı prokurorluğa şikayət edib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında nizamnamədənkənar münasibətlərin qurbanı olanların sayı artır. Dözülməz xidmət şəraiti, dərman və qida məhsulları çatışmazlığı ilə yanaşı, düşmən ordusunun əsgərləri həm də özbaşınalıq və nizamnamədənkənar münasibətlərə də məruz qalırlar.

Hava hücumundan müdafiə bölməsinin əsgəri Aşot Qrutyan nizamnamədənkənar münasibətlər zəminində baş verən cinayətin qurbanı olub. Qarabağdan olan erməni əsgərlər tərəfindən vəhşicəsinə döyülən A.Qrutyan tibb məntəqəsinə yerləşdirilib.

Hadisə hüquq mühafizə orqanlarından gizlədilərək örtbasdır edilir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbçilər arasında qeyri-döyüş itkilərinə səbəb olan hadisələrin qarşısını ala bilmirlər.

Postlardan birində erməni əsgərin diqqətsizliyi üzündən qumbara partlayıb. Hadisəni törədən Arman Balayandan başqa daha iki əsgər müxtəlif dərəcəli qəlpə yaraları alıb.

Hərbi qulluqçuların sağlamlıqları ilə bağlı məlumat ictimaiyyətdən gizlədilsə də, faktla bağlı istintaq davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində hərbçilər arasında nizamnamədənkənar münasibətlər səbəbindən daha bir cinayət hadisəsi qeydə alınıb.

Dağ-atıcı alaylarının birində hərbi qulluqçu kiçik çavuş Qarnik Petrosyan üz nahiyəsindən aldığı zədələr səbəbindən hospitala təxliyə edilib. Komandirin təhriki ilə kiçik çavuşun hamamda yıxılaraq xəsarət aldığı bildirilsə də, hərbi polisin müstəntiqi Q.Petrosyanın təhqirlərə cavab olaraq xidmət yoldaşları tərəfindən döyüldüyü qənaətindədir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbçiləri arasında qeyri-döyüş şəraitində ölüm hallarının sayı artmaqda davam edir.

1999-cu il təvəllüdlü Hayk Xudoyan adlı əsgərin günahı üzündən baş verən mina partlayışı nəticəsində ən azı bir nəfər ölüb, üç nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Ölən və yaralı hərbi qulluqçular hospitala təxliyə ediliblər.

Fakt, hələlik, ictimailəşdirilməsə də, cinayət işi açılıb, araşdırma aparılır.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# "Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsidir"

*2016-cı ilin aprel döyüşlərindən bizi üç illik zaman məsafəsi ayırır. Xalqımıza uzunmüddətli atəşkəs dövründə ilk dəfə qələbənin sevincini yaşadan bu döyüşlər istər ölkə, istərsə də dünya ictimaiyyətində geniş təəssürat yaratdı və media qurumları bu hadisələri geniş təbliğ etdi. Həmin döyüşlərin birbaşa iştirakçısı olan hərbi qulluqçularımızın düşüncələrini, xatirələrini qələmə almışıq.*



**Mayor Zaur Məmmədov:**

- Babam Əbil Abbasov meşəbəyi idi. Müharibə ərəfəsində ermənilər meşəni tərk etməsini tələb etsələr də, babam buna razı olmayıb. Azğınlaşan düşmən babamı ağackəsən mişarla vəhşicəsinə doğrayıb quyuya atıblar. Əmilərim günlərlə babamı axtarsalar da, tapa bilməyiblər. Telman adlı erməni babamın öldürülərək quyuya atıldığı xəbərini göndərəndən sonra meyitini tapıb dəfn ediblər. Sonra öyrəndik ki, Telmanın bizə xəbər verdiyini bilən ermənilər, onu kəndin içində diri-diri yandırıblar.

Uşaqlığım ermənilərin vəhşiliklərini görməklə və dinləməklə keçib. Məktəbdə oxuyarkən, "Hansı peşə sahibi olmaq istəyirsiniz?" sualına həkim, polis, prokuror deyənlər çoxuydu. Mən düşünmədən "Hərbçi olacam" deyirdim. Belə də oldu. 9-cu sinfi qurtarandan sonra sənədlərimi Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verdim. Torpaqlarımızın qorunması uğrunda döyüşlərdə könüllü olaraq iştirak edənlərin sırasında atam da var idi. Bu yol həm də ata yolunun davamıdır. Bu yolu seçməyimdə təsirsiz ötüşməyən bu hadisələrin hər biri tariximizdir. Məhz tariximiz, Qarabağ həsrəti, qisas hissi və Vətənə sevgi hərbçi peşəsini seçməyimdə ən böyük səbəblərdəndir.

Ön xətdə leytenant rütbəsində xidmət edərkən komandirlərimdən birinin dedikləri sözü unutmamışam. "Sən xidmətini həyatındakı hər şeydən üstün tutursan. Vətən torpağının hər qarışı uğrunda canını qurban verməyə hazırsan". Bu, həqiqətən belədir. Bu fikirlər təkcə mənə deyil, bütün hərbçilərimizə aiddir. Mən bu peşəyə könüldən bağlanmışam. Atdığım hər addıma etdiyim xüsusi diqqətə görə digər zabit yoldaşlarım deyirdi ki, sənin formaya, xidmətə münasibətin sevgi deyil, əvəzedilməz məhəbbət hadisəsidir. Təbii ki, layiqli xidmət etmək mənim və hər bir vətəndaşın mənəviyyat borcudur. Hansı sahədə çalışmaqdan asılı olmayaraq hər birimizin əsas vəzifəsi Vətənə layiqli övlad olmaqdır. Hərbçiyəm və Vətənimin keşiyindəyəm. Mən də digər zabitlər kimi əsgərlərimin hamısına Vətən sevgisi aşılayıram. Hərbçilər Vətənə ən dəyərli övladdır. Müşahidələrim və qənaətim onu deyir ki, bu gün vətənpərvər gəncliyimiz, Vətənə sevgi, dövlətinə sədaqət ruhunda tərbiyə olunan uşaqlarımız var. Bu gün ordu sıralarında xidmətə gələn hər bir əsgərin bir arzusu var: torpaqlarımızın işğaldan azad edilməsi.

Biz hərbçilər dünyaya bir pəncərədən baxırıq. O pəncərə ki, oradan səngərdəki mövqelərdən Qarabağ görünür. Vətənə xidmət borcdur, şərəfdir, mənəviyyatdır. Səngərlərdən döyüşə başlayacağıq, döyüşəcəyik, qələbə qazanacağıq.

Böyük türk şairi Mehmet Tevfik Fikretin belə bir kəlamı var: "Vətən onu sevən insanların çiyinləri üstündə yüksəlir". Mən də Vətənimi sevirəm.

Döyüşə atılanda qürur hissi keçirdim. Ürəklə döyüşdüm, yaralandım da. Torpaqlarımızın müəyyən bir hissəsini azad etdik. Aprel döyüşləri tək bizim deyil, xalqımızın qürur mənbəyidir. O gün ermənilər Azərbaycan Ordusunun gücünə, Azərbaycan əsgərinin döyüş əzminə və ruh yüksəkliyinə şahid oldu.

Azərbaycan əsgəri Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirir. 2016-cı ilin aprelində əsgərlərimiz dəyanətlə irəli atılıb düşməni torpaqlarımızdan geri çəkilməyə məcbur etdilər. Hamı mərdliklə döyüşdü. Bu döyüşlərdə ordu ilə xalqın birliyinin səviyyəsi də təsdiqləndi. Dünya ictimaiyyəti gördü ki, xalq ordusuna inanır, ordu xalqa arxalanır.

İstəyirəm ki, əsgərlərimiz savadlı, mərd, cəsarətli və iradəli olsunlar. Ən əsası iradəli olmaq lazımdı. Çünki xidmət dövründə insan psixologiyasına təsir edən bir çox nüanslar olur. Vətən keşiyində dayananda ən çox güc iradənin üzərinə düşür. Savadlı olmaları, daim mütaliə etmələrini məsləhət görürəm. Hərbi biliklərə dərindən yiyələnmək müharibədə uğur qazanmaq deməkdir.

Torpaqlarımızı işğaldan azad edəcəyik. Uşaqlığım Şuşada, Xankəndidə keçməsə də, qocalığımı Qarabağda yaşamağı arzulayıram.

**Kapitan Orxan Həsənov:**

- Mən torpağın sanki canlanaraq səni bağrına basmasını, qucmasını, sevincini hiss etmiş Vətən əsgəriyəm. İllərdir qoxusunu ciyərlərimə çəkməyin, toxunmağın həsrətini çəkdiyim müqəddəs torpaqlarımızı ovucların arasına alaraq öpməyin, qoxlamağın nə demək olduğunu bilirəm. Və bu hissi xalqıma, millətimə yaşatmaq istəyənlərdən biriyəm.

Naxçıvan şəhərində anadan olmuşam. Vətənimin başının üstünü alan qara buludlar uşaqlıq illərimin nağıllarına da təsirsiz ötüşməyib. İnsanların üzündə daim qayğı, hüzn, kədər görərdim. Əsrlərdir xalqıma zülm edib taleyinə soyqırımı, faciə, köçkün, qaçqın həyatı yazan düşmənlərimizdən qisas almaq hissi ilə böyüdüm. Elə o illərdən qəlbimdə bir arzu anbaan böyüyürdü: Azərbaycanımızın işğaldan azad olunmuş bütün torpaqlarında üçrəngli bayrağımızın dalğalanmasını görmək.

Bu düşüncəylə Vətəni qorumaq peşəsini - hərbçi olmağı seçdim. 2003-2006-cı illərdə Heydər Əliyev adına Hərbi Liseydə hərbi təhsilimi aldım. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra leytenant rütbəsi alaraq ön xətdə xidmətə başladım. Xidmət müddətimdə Goranboy, Tərtər, Ağdam istiqamətlərində düşmənlə üz-üzə qulluq edərkən tabeliyimdə olan əsgərlərin dövlətimizə, ordumuza olan bağlılığının, vətənpərvərliyinin şahidi olduqdan sonra peşəmə olan sevgim sonsuz ümmana döndü.



2016-cı il. Aprelin 1-i...

Adi, sıradan bir gün kimi açılan sabahın gecəsi tarixə dönəcəkmiş. Özü də illərdir xalqımızın həsrətində olduğu bir tarixə.

Düşmən atəşkəsi daim pozur və cavab atəşi ilə susdurulurdu. Gecə yarı yenə güllə səsləri eşidildi. Lakin bu dəfə düşmənin fikri fərqli imiş. Bölməyə həyəcan siqnalı verildi. Bir anın içində tanklarımızı, döyüş maşınlarımızı işə saldıq, heyət nəferləri yerlərini aldı. Əks-hücuma keçdik. O anlarda hərbçilərimizin üzündə yalnız sevinc hissi vardı. Hamı bir nəfər kimi döyüşlərə ruh yüksəkliyi ilə qatıldı. Şəxsi heyət bu günü gözləyirmiş kimi düşmən üzərinə şığıdı. Düşmənin məkrli niyyətini ürəyində boğaraq murdar ayaqları ilə bir addım belə atmağa imkan vermədik. Tanklarımızla bütün manevrləri darmadağın edərək Talış yüksəkliyinə kimi irəlilədik. Düşmənin planı pozulmuşdu. Bu anlarda özünü itirərək geri çəkilən düşməni sadəcə silah və texnikalarımız deyil, hərbçilərimizin Vətən, torpaq sevgisi də qorxuya salmışdı. Bu döyüşlərdə rütbəsindən, vəzifəsindən asılı olmayaraq hər kəs yumruq kimi bir olaraq düşmənin geriləməsinə, məhvinə səbəb oldu. Qorxubilməz, cəsur oğullarımızın gücü qarşısında acizləşən düşmən silahını, texnikasını, meyitlərini belə qoyaraq qaçmağa başladı. Bu döyüşlər sübut etdi ki, erməni ordusu da, əsgəri də Azərbaycan Ordusundan və əsgərindən çox zəifdi. Biz bunu bütün dünyaya sübut etdik. Göstərdik ki, düşmən əzəli və əbədi torpaqlarımızdan xoşluqla çıxmasa, Ali Baş Komandanımızın əmri ilə onları məhv etməyə qadirik.

Ordumuzun aprel zəfərindən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin dediyi "Aprel döyüşləri bizim şanlı qələbəmizdir. Azərbaycan Ordusu öz gücünü göstərdi. Ermənistan uzun illər öz ordusu haqqında yalanlar, miflər uydururdu. Guya onların yenilməz ordusu var. Aprel döyüşləri göstərdi ki, hansı ordu yenilməzdir. Azərbaycan Ordusu yenilməz ordudur. Azərbaycan Ordusu istənilən vəzifəni icra etməyə qadirdir" kəlamları ruhumuzu oxşadı. Xalqımıza yaxın gələcəkdə Böyük Qələbə sevincini yaşadacağımıza əminik.

**Gizir Babək Həmidov:**

- Biz tarixinə dayanan, keçmişinə bağlı olan bir xalq kimi formalaşmışıq. İllər ötsə də, zaman keçsə də, bizim Vətən sevgimiz nə azalar, nə də bitər. Qanımız, ruhumuz vətənpərvərliklə yoğrulub bizim.

Gəncə şəhərində anadan olmuşam. Atamın Vətən sevgisi haqqında illər sonra belə düşünəndə müqayisəedilməzliyini bir daha dərk edirəm. Ürəyimizə əkdiyi bu sevgi pöhrəsi illər keçdikcə böyüdü, böyüdü. Söylədiyi "daşıdığın Babək adına layiq ol" kəlmələri həyatımın mənasını Vətənimə, xalqıma, millətimə xidmətdə görməyimə səbəb oldu. 2012-ci ildə elə bu sevgi ilə də ordu sıralarına gəldim. Ön xətdə xidmətə başlayarkən keçirdiyim hisslər izahedilməzdir. Xidmətdə olduğum müddətdə ən böyük arzum işğalda olan torpaqlarımızın azad olunmasında mənim də payımın olması idi. Uca Yaradan sanki səsimi eşitdi, arzum reallığa çevrildi.

Aprelin 1-dən 2-nə keçən gecə erməni silahlı qüvvələrinin məkirli planlarının qarşısını ordumuz zamanında və layiqincə aldı.

Onların bu planları bir anın içərisində alt-üst edildi. Ermənilər gözləmədikləri halda əks-hücuma məruz qalanda özlərini itirdilər.

Əsgərlərimiz döyüşlərə atıldı. Düşmənin əsgərləri qoruduqları postları qoyub geri qaçırdılar. Axı bu torpaqlar onların deyil, bu yerlər onların Vətəni olsaydı, onlar da bizim kimi həmin torpaqlar uğrunda şəhid olmağı şərəf sayardılar.



Əsgərlərimizin qəhrəmanlığı erməniləri vahiməyə salmışdı. Biz son nəfəsimizə qədər döyüşmək fikriylə bu döyüşlərə atılanda ancaq düşməni məhv etməyi düşünürdük. Atılan güllələrin, mərmilərin, topların sayəsində göy üzü işığa qərq olmuşdu. Sanki qaranlıqdan əsər-əlamət yox idi. Döyüş gedirdi. Şəxsi heyətdən heç kim gözünü yumub, dincəlmək istəmirdi. Təpə-təpə, keçid-keçid təmizlədiyimiz torpaqlardan güc alırdıq. O torpaqlara toxunmağın, üstündə addımlamağın verdiyi hissi izah etməyə söz tapa bilmirəm. Beynimizdə bircə fikir vardı: irəliyə, daha da irəliyə...

Lələtəpənin və bir neçə postun işğaldan azad olunmasında iştirak etdim.

Aprelin 4-ü axşam saatlarında ürəyimdən və ayağımdan qəlpə yarası aldım. Heç bir ağrı hiss etmirdim. Sadəcə heyifsilənirdim ki, döyüşlərdən uzaqlaşacam...

Ali Baş Komandanımız cənab İlham Əliyevin cəbhə bölgəsində, azad edilmiş ərazidə aprel döyüşlərinin iştirakçıları ilə görüşərkən böyük fəxarətlə dediyi "Biz öz torpağımızdayıq, bura Azərbaycandır. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Biz öz torpağımızdayıq. Heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq biz öz torpağımızda ikinci erməni dövlətinin yaranmasına heç vaxt imkan verməyəcəyik. Aprel döyüşləri bunu bir daha sübut etdi" kəlamları bizlərə könül xoşluğu yaşadır.

Mən bu döyüşlərdə iştirakımla əlaqədar "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif olunmuşam.

Bu gün aprel hadisələrini qürurla xatırlayırıq. İnamımızın, ümidimizin, mübarizliyimizin şahidi olduq. Dörd gün ərzində ürəyimizdəki ümid qılıncları, qisas hissi, birlik duyğusu daha da canlandı. Bir olduq. Birliyimizi düşmənlərimizlə yanaşı, dünyaya da bəyan etdik.

**"Azərbaycan Ordusu"**

*Tarixi mənbələr sübut edir ki, erməni millətçilərinin türk xalqlarına qarşı törətdiyi düşmənçilik siyasətinin 200 ildən artıq yaşı vardır. Əsrlər, illər keçməsinə baxmayaraq xalqımız o ağır işgəncələri unutmur, soyqırımlarının qurbanları olmuş günahsız insanların xatirəsini dərin ehtiramla yad edir. Əslində, keçmişini unudan tarixini yaşatmayan bir xalqın gələcəyi yoxdur. Bütün hadisələr hər bir millətin qan yaddaşında əbədi yer tutmalı və gələcək nəsillərə təbliğ edilməlidir.*

# Ermənilərin vəhşilikləri insanlığa qarşı ən ağır cinayətlərdir




Xalqımıza, türk dünyasına qarşı erməni daşnaklarının həyata keçirdiyi soyqırımı siyasətinin bir məqsədi olub: işğal olunmuş türk torpaqları hesabına "Böyük Ermənistan" dövləti yaratmaq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev mötəbər tədbirlərdə, beynəlxalq qurumların və nüfuzlu dövlətlərin rəsmiləri ilə görüşlərində dəfələrlə qeyd edib ki, İrəvan, Zəngəzur və digər ərazilər tarixi Azərbaycan torpaqlarıdır. Yəni, indiki Ermənistan Respublikası Azərbaycan torpaqları üzərində yaradılıb. Bunu sübut etməyə ehtiyac yoxdur, bu tarixdir.

1905-1906-cı illərdə, habelə 1918-1920-ci illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda və s. tarixi torpaqlarımızda dinc əhalimiz soyqırıma məruz qalıb. Yüz minlərlə soydaşımız vəhşicəsinə qətlə yetirilib, olmazın işgəncələrin qurbanı olub. Ermənilərin qaniçən əməlləri məhz faşizmə xas olan terrorçuluq siyasətidir.

Yeri gəlmişkən bir faktı qeyd etməyə dəyər ki, Ermənistan dövlətinin tarixi ərazilərimizdə həyata keçirdiyi məqsədyönlü soyqırımı siyasətinə ilk dəfə ümummilli liderimiz Heydər Əliyev tərəfindən siyasi-hüquqi qiymət verilib. Ulu Öndərimiz Azərbaycan tarixinin araşdırılması və tarixi faktlara düzgün qiymət verilməsi üçün çoxsaylı fərman və sərəncamlar imzalayıb. İlk dəfə olaraq 1998-ci ildə dahi rəhbərin imzaladığı fərmana əsasən, 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Elə həmin vaxtdan da bu gün dövlət səviyyəsində qeyd olunur, bütün kollektivlərdə, idarə və təşkilatlarda, təhsil müəssisələrində, həmçinin ölkəmizin xarici dövlətlərdə akkreditə olunmuş səfirliklərində və diaspor qurumlarında anım mərasimləri keçirilir.

"Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrin məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir", - deyən Ulu Öndər tövsiyə edirdi ki, bu hadisələrin, yəni, ermənilərin torpaqlarımızda törətdiyi vəhşiliklərin cəmiyyətdə təbliğ edilməsi, kütləvi nəşrlərdə və informasiya vasitələrində bu hadisələr barədə geniş məlumat verilməsi gənc nəslin vətənpərvərlik, düşmənə sonsuz nifrət ruhunda tərbiyə edilməsində az rol oynamır. Və bu siyasi kurs hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ötən il mart hadisələrinin 100-cü ildönümü ölkəmizin hər yerində qeyd edildi. Bu məqsədlə çoxsaylı elmi konfranslar, tarixi mövzuda tədbirlər keçirildi. 28 yanvar 2018-ci ildə dövlət başçısı tərəfindən "Azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" tarixi bir sərəncam imzalandıqdan sonra nəinki ölkəmizdə, habelə dünyanın bir sıra dövlətlərində soyqırımı həqiqətlərinin təbliği baxımından mühüm işlər görüldü.

Ermənilərin törətdiyi vəhşiliklərin dünya ictimaiyyətinə çatdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri olub. Onun rəhbərlik etdiyi təşkilatın xətti ilə Qarabağ həqiqətləri geniş miqyasda təbliğ olunub, ölkəmizin hüdudlarından kənarda vacib tədbirlər həyata keçirilib. Bu günlərdə Mehriban xanımın Fransaya işgüzar səfəri, erməni lobbisinin geniş miqyas aldığı bu ölkənin mühüm rəsmi dairələri ilə keçirdiyi görüşlər Vətənimizin üzləşdiyi Dağlıq Qarabağ probleminin həllinə yeni təkan verəcəkdir.

Yeri gəlmişkən, Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın rəhbərlik etdiyi "Xocalıya ədalət" kampaniyası son illər geniş bir hərəkata çevrildiyini qeyd etmək yerinə düşərdi. Onun rəhbərliyi və təşkilatçılığı ilə dünyanın 70-dən çox ölkəsində Xocalı ilə bağlı konfranslar, sərgilər təşkil olunub. ABŞ-ın 14 ştatında bu faciə soyqırımı aktı kimi tanınıb. Bu gün "Xocalıya ədalət" kampaniyasının çağırışı BMT, Avropa parlamenti, İslam Əməkdaşlıq Təşkilatı kimi nüfuzlu təşkilatlarda eşidilir.

Ötən il Azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Milli Məclisi tarixi bəyanat verdi. Həmin bəyanatda deyilir: "1918-ci ilin mart-aprel aylarında Bakı quberniyasında başlanan kütləvi qətllər və talanlar daha sonra Qarabağda, Zəngəzurda, Naxçıvanda, İrəvanda, Göyçədə və digər bölgələrdə davam etdirilmişdir. Yüz minlərlə azərbaycanlı erməni şovinistlərinin vəhşilik əməllərinin qurbanı olmuşdur. Təkcə 1918-ci ilin mart-iyul aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda, Göyçayda erməni mütəşəkkil silahlı dəstələri 50 mindən çox azərbaycanlını qətlə yetirmişlər. Şamaxı qəzasının 110 kəndi, Quba qəzasının 167 kəndi, Qarabağın 150-dən çox kəndi, Qars vilayətinin 98 kəndi dağıdılmış, yandırılmış və talan edilmiş, dinc əhaliyə yaşına və cinsinə fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. Azərbaycanın tarixi torpaqlarına daxil olan İrəvan şəhərində və onun ətrafında 199 kənd yerlə-yeksan edilmiş, 132 min azərbaycanlı məhv edilmişdir".

Bir acınacaqlı məsələni vurğulamaq lazımdır ki, bu hadisələrdə düşmən sadəcə insanları faktiki məhv etməklə kifayətlənməyib, tarixi abidələrimizi darmadağın edib və bir çox abidələri, qədim yaşayış məskənlərimizi öz adlarına çıxmaqla milli irsimizə ağır zərbələr vurub. Bu günlərdə internet saytlarından birində rast gəldiyim məqalə məndə ikrah doğurdu. Ermənilər həyasızcasına sübut etməyə çalışırlar ki, guya tarixi İrəvan qalası onlara məxsus olub və "Yerevanqala" adlandırılıb. Əsl həqiqətdə isə, 1500-cü illərdə Şah İsmayıl Xətai öz hakimiyyəti dövründə ağıllı, müdrik vəzirlərindən olan Rəvanqulu xana qala tikdirməyi tapşırır və həmin vəzir də möhtəşəm bir qala inşa etdirərək ona öz adını verir: "Rəvan qalası". Sonradan bu ifadə xalqın dilində "İrəvan qalası" kimi səslənir. Siz ermənilərin necə hiyləgər bir millət olduğuna fikir verin. Tarix sübut edir ki, 5 əsr əvvəl heç onların dövləti olmayıb. Ermənistan adlı dövlət 200 il öncə, daha dəqiq desək, 1813 və 1828-ci illərdə Rusiya və İran arasında bağlanmış Gülüstan və Türkmənçay sülh müqavilələrinin nəticəsində Azərbaycan torpaqlarının bu iki imperiya arasında bölüşdürülməsi hesabına yaranıb. Birmənalı qeyd etmək lazımdır ki, imperialist qüvvələrin məqsədyönlü işğalçılıq siyasətinin yekunu olaraq Ermənistan adlı dövlət meydana gəlib. Ermənilər öz mənfur işğalçılıq, soyqırımı planlarını ört-basdır etmək üçün bu kimi nə qədər yalanlar uydurublar.

Yaşlı vətəndaşlarımızın əksəriyyəti Stalin dövründə xalqımızın başına açılan faciələri ürək ağrısıyla xatırlayır. 1942-1953-cü illərdə məhz onun fitvası ilə yüz minlərlə soydaşımız tarixi Qərbi Azərbaycan torpaqlarından zorla sürgün ediliblər və bu didərgin insanların bir çoxu Azərbaycanın şiddətli quraqlıq olan aran bölgələrində zorla məskunlaşdırılıb. 150 mindən artıq günahsız insan məhz həmin dövrün etnik təmizləmə siyasətinin qurbanı olmuşdu. Qərbi Azərbaycandan didərgin düşən həmvətənlərimiz həmişə ermənilərin onlara qarşı qəddarlığından, vəhşiliyindən ürəkağrısıyla danışıblar. İnsanda acı təəssüf və ikrah hissi yaranır ki, Ermənistan ərazisində yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayca on qat az olan ermənilər üçün qondarma "Dağlıq Qarabağ Muxtar Vilayəti" təşkil edilmişdi. Ermənistanda yaşayan soydaşlarımıza çox nadir hallarda vəzifə verildiyi halda, bu qondarma vilayətin bütün rəhbər strukturlarına erməni millətinin nümayəndələri təyin edilmişdi.

XX əsrin sonlarına yaxın, yəni Mixail Qorbaçov kimi qaniçən bir diktatorun Sovet İttifaqına rəhbərliyi dövründə hiyləgər ermənilər onu ələ alaraq 1988-ci ildən etibarən Qarabağ bölgəsində işğalçılıq məqsədlərini davam etdirməyə nail olurlar. Bu zaman Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Vətənimizin qədim, əzəli torpaqları olan Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayon - Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan düşmən tərəfindən işğal edildi. Ermənilərin növbəti qəsbkarlıq siyasətinin nəticəsi olaraq 1 milyondan artıq vətəndaşımız ata-baba yurdlarından zorla didərgin salındı, 20 minə qədər azərbaycanlı qətlə yetirildi, 20 mindən çox dinc sakin yaralandı, 50 mindən çox adam əlil oldu, 4 min nəfərdən artıq azərbaycanlı isə əsir və girov götürüldü. Ötən əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımında isə bir qəsəbə yer üzündən silindi, 613 nəfər dinc əhali, o cümlədən 63 azyaşlı uşaq, 106 qadın vəhşicəsinə öldürüldü, 487 nəfər şikəst oldu, 1275 nəfər əsir götürülərək ağlasığmaz işgəncələrə, təqiblərə məruz qaldılar. "İzvestiya" qəzetinin hadisələrin şahidi olan müxbiri bir məqaləsində yazırdı: "Ağdama dayanmadan meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bir neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddi-hüdudu yox idi"...

Heydər Əliyev Fondu tərəfindən hazırlanmış nəşrlərdə qeyd olunan faktlar da sübut edir ki, erməni faşistləri xalqımıza qarşı nə qədər qaniçən olublar. "Armenakan", "Hnçak", "Erməni gizli azadlıq ordusu", "Asala", "Erməni azadlıq cəbhəsi" və digər terrorçu təşkilatlar məhz Ermənistan dövlətinin dəstəyi ilə yaradılaraq müxtəlif qırğınların, soyqırımı aktlarının təşkilatçıları olub. Təkcə "Daşnaksütyun" partiyasının 30 aylıq hakimiyyəti dövründə Ermənistanda müsəlmanların sayı 77 faiz azalmışdı. Bu əyani sübutdur ki, bir partiya hakimiyyətdə olan zaman nə qədər cinayətlərin real təşkilatçısına çevrilib.

Bütün bunlar deməyə əsas verir ki, dünya siyasətində ikili standartlar mövcuddur və hələ də bəzi dövlətlər Ermənistanın işğalçılıq siyasətinə göz yumur. İnsan hüquqlarının qorunmasına cavabdeh olan beynəlxalq təşkilatlar, BMT, ATƏT kimi mötəbər qurumlar işğalçı dövlət barəsində qətnamə və qərarlar qəbul etsə də, təəssüf ki, onlar icra edilmir. Ölkəmizin rəhbərliyi münaqişənin sülh variantı ilə həllinə tərəfdar olduğunu dəfələrlə bəyan etməsinə baxmayaraq qarşı tərəf beynəlxalq hüquqla tanınan ərazilərimizi azad etməyi düşünmür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin vurğuladığı kimi, xalqımızın səbri tükənməz deyil, əgər Ermənistan işğal etdiyi qanuni ərazilərimizdən öz qoşunlarını çıxarmasa, onda xalqımız müharibə yolu ilə həmin torpaqları işğaldan azad edəcəkdir. Buna Azərbaycanın həm haqqı, həm də gücü çatır. Son 15 il ərzində qətiyyətli Ali Baş Komandanımızın rəhbərliyi altında Azərbaycanın hərbi qüdrəti güclənib, ordumuz müasir silah və hərbi texnikalarla təmin olunub və ən başlıcası, hərbi qulluqçularımızın döyüş ruhu yüksəlib. Bunu biz 2016-cı ilin aprel döyüşlərində dərindən hiss etdik. Cəmi bir neçə günlük hərbi əməliyyatda ordumuz düşmənə öz qətiyyətini göstərdi və bütün dünyaya sübut etdi ki, müharibə başlanarsa, qısa müddətdə torpaqlarımızı işğaldan azad etməyə qadirdir.

Azərbaycan güclü iqtisadi-hərbi potensiala, yüksək psixoloji duruma və döyüş hazırlığına malikdir. Düşmən dərk etməlidir ki, əgər torpaqlarımızı son qarışına qədər işğaldan azad etməsələr, onda qüdrətli ordumuz öz sözünü deyəcəkdir. Xalqımız tam əmindir ki, Azərbaycan Ordusu qətiyyətli siyasi liderimiz və Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə bu vəzifəni inamla yerinə yetirəcəkdir.

**Eldar ƏHMƏDOV,**
**ədliyyə müşaviri,**
**Azərbaycan Respublikası Hərbi Prokurorluğu**



Məişət xidməti

# "Hərbi hissəni evimiz, əsgərləri doğma övladımız bilirik"

*Son illər Azərbaycanın ordu quruculuğunda həyata keçirilən islahatlar əsgərlərin məişətində də öz sözünü deyir. Hazırda hərbi bölmələrdə ən müasir səviyyədə sosial şərait yaradılıb. Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduya göstərdiyi diqqət və qayğı nəticəsində əsgərlərin qida, ərzaq və geyimlə tam təminatı yüksək səviyyədədir.*

Hərbi hissələrimizdə yeni yeməkxanalar, yataqxanalar, hamam və camaşırxanalar şəxsi heyətin istifadəsinə verilib. Bunlarla yanaşı, Müdafiə nazirinin göstərişi ilə hərbi hissələrdə təsərrüfat işlərinə qadınların cəlb olunması da uğurlu islahatlardan biridir. Qadın işçilər əsgərləri öz övladlarından ayırmır, onlara doğma münasibət bəsləyirlər. Onlar həm milli mətbəximizin gözəl təamlarından bişirir, həm də onların camaşırlarının təmiz yuyulub ütülənməsi işini yerinə yetirirlər. Nəticədə xidmət keçən gənclərimiz ana qayğısı ilə əhatə olunurlar və bu münasibət onların mənəvi-psixoloji hazırlığına müsbət təsir edir. Bu da şəxsi heyətin məişət işlərindən uzaqlaşaraq döyüş hazırlığı ilə məşğul olmasına zəmin yaradır.

Düşmənlə təmas xəttində yerləşən hərbi bölmədə bu qayğının bir daha şahidi olduq. Hərbi hissənin müasir şəraiti bizə xoş ovqat aşıladı. Söhbətləşdiyim qadınların hər biri əsgərləri öz övladlarından ayırmadıqlarını vurğulayaraq, torpaqlarımızı qoruyanlara xidmət etməkdən qürur duyduqlarını bildirdilər.

Aşpaz Kifayət Hüseynova bildirdi ki, əsgərləri doğma övladımız, qardaşımız, hərbi hissəni isə evimiz bilirik. "Bura böyük və möhkəm ailədir. Bütün yeməkləri sevgi ilə bişirirəm. Dadlı və keyfiyyətli xörəklər hazırlamaq üçün əlimdən gələni edirəm. Onlar hazırlanan xörəklərdən razılıqlarını bildirəndə özüm də sevinirəm. Prezidentimiz hərbi hissələrə səfərlərinin birində aşpazlara demişdi ki, siz əsgərlər üçün daha dadlı, keyfiyyətli yeməklər hazırlayın, qoy onlar sağlam, gümrah, möhkəm olsunlar, çünki torpaqlarımızı, Vətənimizi düşməndən qoruyurlar. Bu sözlər işimizin vacibliyini və məsuliyyətini bir daha göstərir. Müqəddəs vəzifəni yerinə yetirən oğulların qulluğunda durmaq bir ana üçün ən şərəfli işdir".



Müasir tələblərə cavab verən, tamamilə avtomatlaşdırılmış sistemdə fəaliyyət göstərən camaşırxana ən son avadanlıqlarla təchiz olunub. Camaşırxanada qadın səliqə-sahmanı hiss olunur. Burada çalışanların çoxu qadındır.

Operator Gözəl Məhərrəmova əvvəlcə işin gedişindən danışaraq bildirdi ki, yeni avadanlıqlar camaşırların qısa müddətdə tərtəmiz yuyulub təhvil verilməsinə zəmin yaradır. "Biz şəxsi heyətin yataq dəstlərini və geyimlərini bölmələrdən təhvil alırıq. Müasir və irihəcmli paltaryuyan maşınlarda yuyulduqdan sonra ütüləyir, çeşidləyir və səliqə ilə anbara yığırıq. Sonda anbardan bölmələrə təhvil veririk. Bütün işçilər kimi, mən də işimə ürəkdən bağlıyam. Ordumuzun gücünün artmasında bizim də əməyimizin olması məni sevindirir. Ordu xalqın güvənc yeridir, arxa-dayağıdır. Şərəfli peşə sahibləri ilə bir arada olmaq, onlara xidmət etmək ikiqat qürurludur."



Günel Hacıyeva da fikirlərini bildirdi. "Bir neçə il öncə qadınların orduda məişət işlərinə cəlb olunduğunu eşidəndə sevindim, hərbi xidmətə gəlmək üçün komandanlığa müraciət etdim. Doğma el-obamızı düşməndən mətinliklə qoruyan övladlarımıza qulluq göstərməkdən qürur duyuram. Gördüyünüz bu əsgərlər gecə-gündüz torpaqlarımızın keşiyində dayanırlar, onların üst-başının, yataq dəstlərinin təmiz və səliqəli olması üçün heç bir zəhmətdən çəkinmirik. Öhdəmizə düşən bütün işlərə ürəklə yanaşır, həvəslə çalışırıq. Dövlət və ordu rəhbərliyinə minnətdarıq ki, övladlarımıza belə yüksək qayğı var."

"Əsgər balalarımızı təmiz və ütülənmiş yataq dəstləri, səliqə-sahmanlı geyimlə təmin etmək üçün çalışırıq. Mən də əsgərlərimizə xidmət etməkdən qürur duyuram. Buradan əsgər valideynlərinə demək istəyirəm ki, narahat olmayın, oğullarınıza öz balalarımız kimi qulluq edirik", - camaşırları səliqə ilə ütüləyən operator Zülfiyyə Həsənova belə dedi.

Hərbi bölmənin cavabdeh zabitlərindən olan mayor Qəmbər Orucov söhbətində burada çalışan qadın işçilər haqqında ağızdolusu razılıq etdi. O dedi ki, işçilərin hər biri zəhmətkeş insandır. Öhdəsinə düşən işləri bacarıqla yerinə yetirir, hər bir hərbi qulluqçuya doğma münasibət bəsləyir, qayğı ilə yanaşır. Əsgərlər məsuliyyət hissi ilə xidmət edir, bütün tapşırıqların öhdəsindən bacarıqla gəlirlər.

**Leytenant Mahmud MÖHBALIYEV, "Azərbaycan Ordusu", fotolar C.CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin təhlükəsizlik qüvvələri PKK-ya sarsıdıcı zərbə vurub



Türkiyə Silahlı Qüvvələri ilə Milli Təhlükəsizlik Təşkilatı (MİT) Qəndil dağlarında birgə uğurlu antiterror əməliyyatı keçirib.

Bu əməliyyatda PKK-nın rəhbərlərindən hesab edilən Cemil Bayıkın ən etibarlı adamlarından olan Rıza Altun və onun yaxın ətrafının yerləşdikləri ərazi bombalanıb.

Bildirilir ki, əməliyyat məlumatları əsasında PKK mənsublarının toplantı keçirəcəkləri müəyyən olunub. Beləliklə, antiterror əməliyyatı nəticəsində PKK-nın xarici əlaqələrini koordinasiya edən "Navdar" ləqəbli Mikail Özdemir, terror təşkilatının sözçüsü "Serhat Varto" ləqəbli Emrullah Dursun və Kandil üzrə aparıcı şəxs "Sinan Sor" ləqəbli Ali Aktaş məhv edilənlər arasında olublar. Yaralanan Rıza Altunun aqibəti isə bəlli deyil. Terrorçuların Abu Bakra kəndinə getdikləri pilotsuz uçuş aparatı tərəfindən müəyyən olunub və yerləşdikləri yer dəqiq koordinasiya ilə qırıcılar tərəfindən bombalanıb.

## Qazaxıstanda hərbi helikopterin qəzaya uğraması nəticəsində 13 hərbçi ölüb



Qazaxıstanın Qızıl Orda vilayətində Mi-8 hərbi helikopterin qəzaya uğraması nəticəsində 13 hərbçi ölüb.

Qazaxıstanın Müdafiə Nazirliyi xəbər verir ki, yerə çırpılan helikopter tamamilə yanıb.

Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev də təyyarə qəzasında 13 hərbçinin həlak olduğunu bəyan edib və onların ailələrinə başsağlığı verib.

## Keçən il Rusiyada 20 terror aktının qarşısı alınıb



Keçən il Rusiyada 20 terror aktının hazırlıq mərhələsində qarşısı alınıb.

Rusiya Milli Antiterror Komitəsinin (MAK) aparat rəhbərinin birinci müavini İqor Kulyaqin bu məlumatı Rusiya Xarici İşlər Nazirliyində keçirilən mətbuat konfransında elan edib.

İ.Kulyaqinin sözlərinə görə, 2018-ci ildə Rusiyada terroryönümlü 36 cinayətin, o cümlədən 20 terror aktının hazırlıq mərhələsində qarşısı alınıb, 69 bandit zərərsizləşdirilib, 37 cinayətkar dəstənin başçısı, 257 bandit və onların 622 əlaltısı saxlanılıb. Son beş ildə Rusiyada törədilmiş terroryönümlü cinayətlərin sayı 24 dəfə azalıb. Terrorizmdə və ekstremizmdə əli olmaqda şübhə doğuran 10 mindən çox əcnəbinin adları Rusiyaya gəlişi qadağan olunmuş şəxslərin siyahılarına daxil edilib, 64 mindən çox internet resursunda terrorçuluq və ekstremizm xarakterli informasiyanın yayılmasına son qoymaq mümkün olub.

## Çin hərbi dəniz qüvvələrinin 70 illik yubileyi münasibətilə parad keçiriləcək



Çin Xalq Azadlıq Ordusunun (ÇXAO) hərbi dəniz qüvvələrinin yaranmasının 70-ci ildönümü münasibətilə aprelin 23-də hərbi dənizçilik paradı keçiriləcək.

Bu barədə Çinin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, aprelin sonlarında hərbi dəniz qüvvələrinin yaranmasının ildönümünə həsr olunan müxtəlif tədbirlər təşkil olunacaq. Çindao sahil şəhərində keçiriləcək həmin tədbirlərdə 60-dan çox ölkənin hərbçilərinin, habelə hərbi gəmilərinin iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, ÇXAO-nun hərbi dəniz qüvvələri 1949-cu il aprelin 23-də yaradılıb.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Məktəblilərin hərbi hissəyə ekskursiyası

*Ölkəmizdə uşaqların sağlam, hərtərəfli, layiqli vətəndaş kimi böyümələri üçün hər cür şərait yaradılıb. Uşaqların yüksək qayğı ilə əhatə olunması, əlverişli mənəvi və sosial mühitdə böyüməsi üçün zəruri şəraitin yaradılması, hərtərəfli şəxsiyyət və layiqli vətəndaş kimi formalaşmasının əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyularaq Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ulu Öndərin "Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır" kəlamı bizə məsuliyyətimizi xatırladır. Uşaqlara qayğı təkcə dövlətin üzərinə düşən vəzifə deyil. Hər bir şəxs yeniyetmələrin hərtərəfli böyüməsi üçün səy göstərməlidir. Çünki uşaqlar cəmiyyətin ən dəyərli sərvəti, hər bir xalqın gələcəyidir. Gələcəyi qorumaq isə hamımızın borcudur.*





Hərb sənətinə olan maraq və bağlılığın artırılması məqsədi ilə Bakı şəhəri Nizami rayonu Ə.Mahmudov adına məktəb-liseyin bir qrup şagirdinin "N" hərbi hissəsinə ekskursiyası təşkil olundu. Məktəblilərə hərbi hissənin yaranma tarixi və fəaliyyəti ilə bağlı məlumat verildi, onlar arsenaldakı silah-sursat, mühəndis, rabitə cihazları və avadanlıqlarla, səyyar təşviqat guşələri, mənəvi-psixoloji təminat vasitələri ilə əyani tanış oldular. Onlar hərbi hissənin şəxsi heyətinin gündəlik iş rejimi və nizam-intizam qaydaları, eyni zamanda Azərbaycan Ordusunun qüdrəti, malik olduğu döyüş texnikasının potensialı haqqında da ətraflı məlumatlandırıldılar. Qonaqlar hərbi hissənin ərazisi, əsgər yataqxanası, tibb məntəqəsi, idman şəhərciyi, hamam-camaşırxana və əsgər yeməkxanası ilə tanış olduqdan sonra hərbi qulluqçularla birgə nahar etdilər. Hərbi hissədə təşkil olunan konsert proqramında iştirak etdikdən, maraqlı səhnəcikləri izlədikdən sonra şagirdlər hazırladıqları məktubları əsgərlərə təqdim etdilər.

Sinif rəhbəri Gülnarə Quliyeva tədbirin baş tutmasına şərait yaratdığına görə Müdafiə Nazirliyinin rəhbərliyinə və lisey direktoru Lətifə Əzimovaya təşəkkürünü, qonağı olduqları hərbi hissənin komandanlığına minnətdarlığını bildirdi:

- Belə tədbirlərin və tanışlıq ekskursiyalarının təşkili ordu-xalq əlaqələrinin möhkəmlənməsində, suverenliyimizin qarantı olan ordumuza sevgi və ehtiramın aşılanmasında, həmçinin şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində böyük rol oynayır. Bildiyiniz kimi, 8-12 yaş uşaqların ən həssas dövrüdür. Məktəblilərin bu yaşlarda əxz etdiyi biliklər və aşılanan duyğular həm onların yaddaşına güclü həkk olunur, həm də gələcəkdə faydalı bir vətəndaş kimi yetişmələrində, peşə, həyat seçimi etmələrində böyük əhəmiyyət kəsb edir. Bu yaşda aşılanan vətənpərvərlik hissi, Vətən, torpaq sevgisi, Vətənin müdafiəsinə hazırlaşmaq duyğuları böyük əhəmiyyət daşıyır və uşaqların yaddaşında silinməz müsbət izlər qoyur. Vətəni qorumaqdan danışanda ilk ağlımıza gələn ordumuz və onun



sıralarında Vətənə xidmət edən hərbçilərimiz olur. Heç kimə sirr deyil ki, ölkəmizdə, Təhsil Nazirliyi sistemində də hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində böyük işlər görülür. Bütün bunları nəzərə alaraq biz də "Vətəni və bizi qoruyan ordumuzu sevir, əsgərimizlə qürur duyuruq" devizi altında şagirdlərimizin mütəmadi olaraq hərbi hissələrə, qoşun növlərinə və xüsusi təyinatlı təhsil müəssisələrinə ekskursiyalarını təşkil etmək qərarına gəlmişik. Müdafiə Nazirliyinin rəhbərliyi bu işdə təhsil ocağımıza dəstək olur. Xalqımızın qədim bayramlarından olan Novruz bayramı ərəfəsində hərbi hissədə olmaq, əsgərlərimizlə görüşmək, onları təbrik etmək, Vətən müdafiəçilərinə öz hörmət və ehtiramımızı nümayiş etdirmək, eləcə də onların xidmət və sosial-məişət şəraiti, hərbi texnikalarla tanış olmaq şagirdlərimiz üçün çox maraqlı oldu. Yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə, bu görüşdə əməyi olan hər kəsə məktəbimizin rəhbərliyi, şagirdləri və öz adımdan dərin minnətdarlığımızı bildiririk. Hərbçilərimizi təbrik edir, onlara cansağlığı, ailə səadəti və Qələbə sevinci arzulayırıq. Ordumuzu sevir, əsgərimizlə fəxr edirik.

Daha sonra şagirdlər Hərbi Dəniz Qüvvələrinin "N" hərbi hissəsində oldular. Məktəbliləri hərbi gəmilərlə tanış etdilər. Hərbi Dəniz Qüvvələrinin zabitləri tərəfindən bildirildi ki, bu gün HDQ-nin gəmiləri Xəzər dənizinin Azərbaycana məxsus sektorunda əsasən neft-qaz hasilatı rayonlarının, ixrac boru kəmərlərinin olduqları rayonların mühafizəsi və müdafiəsi ilə məşğul olur. Eləcə də HDQ mülki gəmiçiliyin təhlükəsizliyinin təmin olunması, Xəzər dənizində üzmə rejiminə əməl edilməsi, ümumilikdə Xəzərin Azərbaycana aid sektorunda əlverişli əməliyyat rejiminin saxlanılması üzrə tapşırıqları yerinə yetirir. Gəmilərimizin bir qismi də Hərbi Dəniz Qüvvələrinin daxili tələbatlarına uyğun tapşırıqları yerinə yetirir. Bura axtarış-xilasetmə gəmiləri, adalarda olan infrastrukturun və dənizdə olan gəmilərin hərtərəfli təminatını təşkil etməkdən ötrü təminat gəmiləri-miz daxildir. HDQ-nin Hidroqrafiya gəmi və katerləri də vardır kı, onlar da Xəzər dənizində naviqasiya-okeanaqrafik işlərin, hidrometeoroloji müşahidələrin aparılması, batimetria, geodeziya, topogeodeziya kimi tapşırıqları yerinə yetirir. Hərbi gəmilərin fəaliyyət istiqaməti, şəxsi heyəti, döyüş qabiliyyəti və davamlılığı haqqında ətraflı məlumat verildikdən sonra məktəblilər dənizçilərin sosial-məişət şəraitləri ilə yaxından tanış oldular. Onlar şagirdləri çay süfrəsinə dəvət etdilər.

Şagirdlər bu ekskursiyanı heç zaman unutmayacaqlarını bildirdilər. Onların baxışlarında sevinc, hərb peşəsinə məhəbbətin nişanəsi var idi. İnanırıq ki, şagirdlərimiz əsl vətənpərvərlər kimi formalaşacaq, Vətən qarşısında vətəndaşlıq borcunu yerinə yetirəcək - əsgər olaraq Vətənin keşiyində dayanacaqlar. Onlar yaxşı bilirlər ki, xalqımızın malik olduğu mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq üçün onu müdafiə etməyə hər an hazır olmalıdırlar. Əminik ki, onların hər biri babalarımızın xidmət yolunu şərəflə davam etdirəcək.

Şagirdlərdən Əli Cəfərli dedi ki, mən də böyüyəndə əsgər olacam. "Artıq neçənci dəfədir ki, Vətənimizin müdafiəsində dayanan əsgərlərimizin görüşünə gəlirik. Hər görüşümüz yaddaqalan olur. Hərbi hissələrdə yaradılan şəraitlə, silah və texnikalarla tanış olduqca hərb sənətinə marağımız artır. Gələcəkdə ömrümü hərb sənətinə bağlamaq və hərbçi olmaq istəyirəm. Arzu edirəm ki, hərbçilərimizin gücü, qətiyyəti sayəsində işğal altında olan torpaqlarımızı azad edib, belə ekskursiyalarımızı Şuşada, Kəlbəcərdə, Zəngilanda inşa ediləcək hərbi hissələrimizdə keçirək".

Şagird Yusif Əliyev dedi ki, əsrlər boyu düşmən torpaqlarımıza, tükənməyən sərvətlərimizə göz dikmiş, igid oğullarımız, qeyrətli qızlarımız sinəsini Vətənə sipər edərək, mənfur düşmənə layiqli cavab vermişlər. "Hər bir şəxs bilir ki, Azərbaycan torpağı igid oğullar, qızlar yetişdirib. Elə igidlər ki, əsrlər keçsə də, onların adı xalqımızın yaddaşında əbədi qalacaq. Tədris dövrü zamanı müəllimlərimiz tərəfindən keçirilən dərslərdə Cavanşir, Babək, Koroğlu və daha neçə-neçə igidləri tanıdıqca fəxr edirik. Qarabağ müharibəsi dövründə yenə də yurdumuzun igid oğulları Vətənimizin köməyinə gəldi. Bu savaş yurdumuza Mübariz, Çingiz, Raquf, Murad kimi neçə-neçə qəhrəman bəxş etdi və tarix sübut etdi ki, qəhrəman Azərbaycan oğulları həmişə Vətəninə sadiqdir, onun yolunda canlarını qurban verməyə hazırdırlar. Belə oğullarımızın davamçıları olan hərbçi qardaşlarımızla görüşmək isə məndə ikiqat qürur hissi doğurur. Əsgərlərimizin hər birini Novruz bayramı münasibətilə təbrik edir, onlara cansağlığı arzu edirəm".

Şagirdlərdən Said Babayev, Rəşad Yadullayev, Murad Bayramov, Əlinaqi İsmayılov və digərləri Vətənə olan sevgilərindən, övladlıq borclarını yerinə yetirəcəklərindən danışdılar. Onu da qeyd edilər ki, hərb sənətinə maraqlarının artırılmasında belə ekskursiyaların rolu danılmazdır. Onlar yeni-yeni vərdişlər əldə edir, hərb sənətinin müəyyən sirlərinə yiyələnirlər.

Məktəblərin pedaqoji kollektivlərinin qarşısında gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi sahəsində məsul və təxirəsalınmaz vəzifələrin qoyulması heç də təsadüfi deyildir. Məlumdur ki, hərbi vətənpərvərlik tərbiyəsi bir məqsədə - gəncləri Vətənimizin fəal müdafiəsinə hazırlamaq məqsədinə xidmət etməlidir. Buna görə də Azərbaycan dövləti xalqını, onun gənc nəslini həmişə sayıq olmağa, Vətənimizin hərbi qüdrətini hər vasitə ilə möhkəmləndirməyə, onun müdafiə bacarığını artırmağa çağırır.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 258
Nüsxə 3980